*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 10 avqust 2019-cu il | № 62 (2379) | Qiyməti 30 qəpik


# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik



Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.

Qurban bayramı Allahın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi özündə mənəvi birliyi, həmrəyliyi, xeyirxahlığı və dözümlülüyü ehtiva edərək, insanın ən çətin məqamlarda düzgün mövqe seçmək və ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini əks etdirir.

Tarixən İslama və onun mütərəqqi ənənələrinə bağlı olan xalqımız əsrlər boyu bu dəyərləri yaşatmış və ölkəmiz İslam sivilizasiyasının mədəni mərkəzlərindən birinə çevrilmişdir. Azərbaycanda bütün dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il böyük təntənə və yüksək əhval-ruhiyyə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvaram ki, bütün xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Uca Yaradanın mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Qurban bayramı münasibətilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, qurbanlarınızın Allah tərəfindən qəbul olunmasını arzu edirəm. Qoy, bu mübarək bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 avqust 2019-cu il.

# Azərbaycan Respublikası Müdafiə nazirinin Qurban bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Müsəlmanların mənəvi birlik və həmrəylik, qardaşlıq rəmzi olan Qurban bayramı münasibətilə Sizi ürəkdən təbrik edir, müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dövrlərində xüsusilə, müstəqilliyimizin bərpasından sonra milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunmasının dövlət səviyyəsində təmin edilməsi sayəsində xeyirxahlıq, insanpərvərlik rəmzi olan Qurban bayramı ölkəmizdə böyük sevgi və mənəvi coşqu ilə qarşılanır, dövlət səviyyəsində və ümumxalq bayramı kimi qeyd olunur.

Ulu Öndərin ideyalarını sədaqətlə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurlu xarici və daxili siyasəti nəticəsində dövlətçiliyimizin iqtisadi dayaqları daima möhkəmlənir, Azərbaycan dünyada daha dinamik səviyyədə inkişaf edən, islami və bəşəri dəyərlərə böyük hörmətlə yanaşılan, multikultural mühitin formalaşdığı tolerant dövlət kimi tanınır.

Azərbaycanın dövlət quruculuğunda prioritet məsələ sayılan ordu quruculuğu da ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə inkişaf etdirilir, inamlı islahatlar keçirilir, ordunun maddi-texniki təminatının daha da gücləndirilməsi, müasir hərbi infrastrukturların qurulması ilə əlaqədar addımlar atılır.

Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının artırılması, hərbi qulluqçuların mütəmadi olaraq xidməti və daimi mənzillərlə təmin edilməsi, onların maddi, sosial-məişət, xidmət şəraitlərinin daha da yaxşılaşdırılması və dövlət başçısının digər güzəştlərlə bağlı verdiyi sərəncamlar isə ordumuzun daima diqqət mərkəzində saxlandığına əyani sübutdur.

Bu müqəddəs bayram günündə Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizi ehtiramla yad edir, müqəddəs amal naminə sağlamlığını itirmiş hərbi qulluqçuları, veteranlarımızı və onların ailə üzvlərini də Qurban bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlığınızı daha da gücləndirəcəksiniz.

Sizi müqəddəs Qurban bayramı münasibətilə bir daha ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə nailiyyətlər arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**



"Beynəlxalq Ordu Oyunları-2019"

2-ci səhifədə



Azərbaycan Ordusunun hərbi birlik və birləşmələrində komanda-qərargah təlimləri başlayıb

3-cü səhifədə



"Hərbçilərimizə xidmət etməkdən qürur duyuram"

4-cü səhifədə



Rusiya Federasiyasının hərbi ansamblı konsert proqramı ilə çıxış etdi

5-ci səhifədə

# "Beynəlxalq Ordu Oyunları-2019"

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Moskvanın Alabino poliqonunda keçirilən "Səhra mətbəxi" müsabiqəsində Azərbaycanın hərbi aşpazlarının iştirakı davam edir.

Müsabiqənin mərhələlərində hərbi aşpazlar müxtəlif çeşidli milli yeməklərin hazırlanması üzrə məharətlərini nümayiş etdirir, həmçinin qonaqların marağına səbəb olacaq təamların hazırlanması üzrə "usta dərsləri" də keçirirlər.

"Səhra mətbəxi" müsabiqəsinin hakimləri hərbi aşpazlar tərəfindən hazırlanan milli mətbəx nümunələrinin dadına baxaraq qiymətləndirmə aparırlar.

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Moskvanın Alabino poliqonunda keçirilən "Səhra mətbəxi" müsabiqəsində Azərbaycanın hərbi aşpazları ikinci mərhələni uğurla başa vurublar.

Müsabiqənin növbəti mərhələsində hərbi aşpazlarımız sərbəst resept üzrə yeməklərin hazırlanmasında bacarıqlarını nümayiş etdiriblər.

Hakimlərin qərarına əsasən 281 balla Azərbaycan birinci, 269 balla Qazaxıstan ikinci və 244 balla Monqolustan üçüncü yerdə qərarlaşıb.

"Səhra mətbəxi" müsabiqəsinin növbəti mərhələsində hərbi aşpazlar un məmulatlarının hazırlanması və əvvəlcədən təyin edilən menyuya uyğun təamların bişirilməsi üzrə yarışacaqlar.




* * *

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Moskvanın Alabino poliqonunda təşkil olunan "Dostluq Evi"ndə Azərbaycan pavilyonu yaradılıb.

Sərginin Azərbaycan bölməsində ölkəmizin tarixi, mədəniyyəti, adət-ənənələri və məişətinə aid nümayiş olunan ekspozisiyalar yarış iştirakçıları və qonaqlar tərəfindən böyük maraqla izlənilir.

* * *

Avqustun 7-də "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin təntənəli açılış mərasimi baş tutub.

Mərasimdə yarışlara qatılan komandaların üzvləri, nümayəndə heyətləri və rəsmi şəxslər üçün maraqlı konsert proqramı təqdim olunub.

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsində iştirak edən Azərbaycan komandası yarışlara inamla qoşulub.

Keçirilən mərhələdə artilleriyaçılarımızın birinci heyəti öz bacarığını nümayiş etdirib.

Gecə və gündüz atışlarında iştirak edən birinci heyətimiz hakimlərin qərarına əsasən 12 komanda arasında 3-cü yerə layiq görülüb.

* * *

Azərbaycan Ordusunun hərbi həkimlərinin də iştirak etdiyi "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Özbəkistanda keçirilən "Hərbi-tibbi estafet" müsabiqəsinin növbəti mərhələsi baş tutub. Hərbi həkimlərimiz həmkarları ilə birgə manеələr zolağını dəf etmədə və ixtisas hazırlığında öz bacarıqlarını sınayıblar.

Hakimlərin qərarına əsasən, 11 komanda arasında Azərbaycan heyəti hazırda 5-ci yerdə qərarlaşıb.

* * *

"Beynəlxalq Ordu Oyunları - 2019" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsinin yarımfinal mərhələsinə yüksəlmiş 16 komanda arasında püşkatma mərasimi keçirilib.

Püşkatmanın nəticələrinə əsasən, komandaların rəqibləri, çıxış edəcəkləri gün və döyüş texnikasının rəngi müəyyən edilib.

Qırmızı rəngə boyanmış tanklarda çıxış edəcək komandamızın birinci divizionda ikinci qrupdakı rəqibi Çin, Qazaxıstan və Serbiya heyətləri olacaq.

* * *

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçirilən "Snayper həddi" müsabiqəsində iştirak edən snayperlərimiz yarımfinal mərhələsinə vəsiqə qazanıb.

Püşkatmanın nəticələrinə əsasən, yarımfinal yarışlarına komandamız dördüncü qatılacaqdır.

Növbəti mərhələyə hazırlıq dövründə komandalar atışların sıxlığı və sərrastlığına nail olmaq məqsədilə təhkim edilən silahlardan sınaq və sıfırlama atışları ediblər.

# Əlahiddə Ümumqoşun Orduda Heydər Əliyev adına AAHM-nin bir qrup məzunları ilə görüş keçirilib

*Əlahiddə Ümumqoşun Orduda iyirmi il əvvəl Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirən və hazırda Naxçıvan Qarnizonu qoşunlarında xidmət edən zabitlərin bir qrupu ilə görüş keçirilib.*




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə zabitlər ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə tər gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər. Muzeyi ziyarət edən zabitlər Ümummilli Liderimizin ana Vətənimiz Azərbaycana həsr etdiyi mənalı ömür yolunu özündə əks etdirən eksponatlarla yaxından tanış olublar.

Sonra Ali Hərbi Məktəbin 1999-cu il məzunları Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının məzarlarını ziyarət ediblər.

# Azərbaycan Ordusunun təlim hissə və bölmələrində andiçmə mərasimi keçiriləcək

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, avqustun 11-də Azərbaycan Ordusunun təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimi keçiriləcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış, məişət şəraiti ilə tanış olacaq, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkəcəklər.

Hərbi hissələrin komandanlığı ilə keçiriləcək görüşlərdə valideynləri maraqlandıran məsələlərin müzakirəsi aparılacaq və mədəni-kütləvi tədbirlər təşkil olunacaq.

# Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***9 avqust 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən, Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Cavahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan Ordusunun hərbi birlik və birləşmələrində komanda-qərargah təlimləri başlayıb

*2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq, idarəetmə orqanları və qərargahların döyüş uyarlılığının təşkili, eləcə də heyətlərin əməliyyat və döyüş quruluşunun müxtəlif elementlərinin döyüş tətbiqi üzrə dəqiqləşdirilməsi və yoxlanılması məqsədilə Azərbaycan Ordusunun hərbi birlik və birləşmələrində komanda-qərargah təlimləri başlayıb.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlər trenajorlar və döyüş texnikasından geniş istifadə edilməklə xəritələr üzərində və ərazidə, eləcə də qabaqcıl informasiya texnologiyalarının tətbiqi ilə simulyasiya mərkəzlərində təşkil olunur və keçirilir.

Təlimlərin gedişində dayanıqlı idarəetmə, əməliyyatların hərtərəfli təminatı, həmçinin iştirak edən bütün idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin təşkili məsələlərinə xüsusi diqqət yetirilir.

Qoşunların hədlərə, cəmləşmə rayonlarına çıxışı, onların tutulması, yenidən qruplaşması, dəmiryolu nəqliyyatına döyüş və digər texnikanın yüklənməsi kimi fəaliyyətlərinin nəzəri cəhətdən dəyərləndirilməsi və digər məsələlər xüsusi təyin edilmiş bölmələr tərəfindən praktiki yoxlanılır.

# "Dəniz Kuboku-2019"

*"Dəniz Kuboku-2019" müsabiqəsində iştirak edən Azərbaycan, Rusiya, İran və Qazaxıstanın hərbi gəmilərinin heyətləri "Gəminin dayanıqlılığı uğrunda mübarizə" üzrə yarışda "Təlim məşq kompleksində suyun daxil olmasına qarşı mübarizə" epizodunu yerinə yetiriblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ekipajlar bu epizodda gəminin təhlükəsizliyinin təmin edilməsi, həmçinin gəminin xilas olunması üzrə bacarıq və vərdişlərini nümayiş etdiriblər.

Beynəlxalq hakimlər kollegiyasının qərarı ilə bu mərhələdə Azərbaycan 40 balla birinci, İran 34 balla ikinci, Qazaxıstan 31 balla üçüncü, Rusiya komandası isə 30 balla dördüncü yerə layiq görülüb.

* * *

"Dəniz Kuboku-2019" müsabiqəsinin "Gəminin dayanıqlılığı uğrunda mübarizə və xilasetmə hazırlığı" üzrə mərhələsində hərbi dənizçilər "Xilasetmə vasitələrinin istifadəsi" tapşırıqlarını yerinə yetiriblər.

Beynəlxalq hakimlər kollegiyasının qərarı ilə bu mərhələnin də qalibi Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandası olub.

Qərara əsasən, Azərbaycan hərbi dənizçiləri birinci, Rusiya ikinci, Qazaxıstan üçüncü, İran isə dördüncü yerə layiq görülüb.

* * *



"Dəniz kuboku - 2019" beynəlxalq müsabiqəsi çərçivəsində hərbi dənizçilər arasında voleybol yarışı keçirilib.

Tədbir açıq elan edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Azərbaycan hərbi dənizçiləri voleybol yarışında da qalibiyyətlərini davam etdirib. Belə ki, dostluq turnirinin yekununa görə Azərbaycan birinci, Qazaxıstan ikinci, İran üçüncü, Rusiya komandası isə dördüncü yerə layiq görülüb.

Qalib komandalara kuboklar, medallar, "Fəxri Fərman"lar və hədiyyələr təqdim edilib.

Tədbirin sonunda xatirə fotosu çəkdirilib.

# Qəzaya uğrayan Azərbaycan HHQ-nin təyyarəsinin bəzi fraqmentləri tapılıb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, gecə təlim-məşq uçuşu keçirən zaman qəzaya uğramış Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin Xəzər dənizinə düşdüyü ərazi avqustun 8-i axşam saatlarında müəyyən edilib.

Aidiyyəti dövlət qurumları və xidmətləri nümayəndələrinin, eləcə də axtarışlara cəlb edilən türkiyəli mütəxəssislərin iştirakı ilə görülən təxirəsalınmaz tədbirlər nəticəsində təyyarənin bəzi fraqmentləri hissə-hissə sudan çıxarılıb.

Hazırda təyyarənin əsas hissəsinin dənizin dibindən çıxarılması üzrə hazırlıq işləri görülür.

# Ermənistan təcavüzkar olduğunu açıq bəyan etdi və əsl sifətini göstərmiş oldu

Ermənistanda hakimiyyətə gələrkən özünü "demokratik dəyərlərə sadiq" birisi kimi qələmə verməyə çalışan Nikol Paşinyan əgər əvvəlcə müxtəlif ziddiyyətli bəyanatlar verməklə danışıqlar prosesinə maneələr yaradırdısa, sonuncu çıxışı zamanı o, Ermənistanın təcavüzkar olduğunu açıq bəyan etdi və əsl sifətini göstərmiş oldu.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev Azərbaycanın işğal edilmiş ərazilərində keçirilən "Pan-Ermənistan oyunları" ilə bağlı danışarkən deyib. O qeyd edib ki, Azərbaycanın işğal olunmuş ərazilərinə bu oyunlarla bağlı gələcək iştirakçılar nəzarətdə saxlanılacaq və orada hər hansı bir xarici ölkənin vətəndaşı və ya jurnalist iştirak edərsə, onlara etiraz ediləcək. Həmin şəxslər Xarici İşlər Nazirliyinin "qara siyahı"sına da daxil edilə bilərlər. Onun sözlərinə görə, Ermənistanın əsl niyyəti məhz işğal siyasətidir, Ermənistan və Dağlıq Qarabağdakı cinayətkar rejim tərəfindən indiyə qədər səsləndirilən "öz müqəddəratını müəyyən etmək hüququ" işğal siyasətinin arxasında gizlənməkdən başqa bir şey deyil. Həmin oyunlar öz torpaqlarından qovulmuş azərbaycanlı icmanın əsas insan hüquqlarının pozulması və etnik təmizləmənin törədildiyi məkanda keçirilir. Belə olan halda, bu oyunların keçirilməsi azərbaycanlılara qarşı diskriminasiya şəraiti yaradır və qəbuledilməzdir.

T.Gəncəliyev vurğulayıb ki, Azərbaycanın beynəlxalq tanınmış sərhədləri bərpa olunduqdan və ölkəmizin işğal edilmiş ərazilərindən qovulmuş yüz minlərlə azərbaycanlı geri döndükdən sonra idman oyunları və digər birgə tədbirlərin həyata keçirilməsi mümkün ola bilər. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının əvvəlki bəyanatlarında artıq qeyd edilib ki, Ermənistanın hərbi təcavüzündən öncə Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları sülh şəraitində idman yarışlarında birgə iştirak edirdilər. Lakin Ermənistanın hərbi təcavüzü buna son qoyub. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması idman oyunlarının keçirilməsinə qarşı çıxış etmir və oyunların ədalətli sülhə və barışığa xidmət etməli olduğunu vurğulayır.

İcma rəhbəri əlavə edib ki, Ermənistan və cinayətkar rejimin KİV-lərində "Pan-Ermənistan oyunları" üçün hətta müvafiq "təhlükəsizlik" tədbirlərinin görüldüyü qeyd edilib. Bəyan etmək istərdik ki, Dağlıq Qarabağ bölgəsi də daxil olmaqla, Azərbaycan Respublikası yeganə suveren qismində öz ərazisinin istənilən hissəsində təhlükəsizlik və digər nəzarət tədbirlərini həyata keçirmək hüququna malikdir. Təcavüzkar Ermənistan tərəfindən işğalın nəticələrini "möhkəmləndirmək" üçün atılan istənilən addım beynəlxalq hüquqa zidir və heç bir fayda verməyəcək.

Qeyd edək ki, Ermənistan KİV-lərində yayılan məlumata əsasən, Azərbaycanın işğal edilmiş ərazilərində 2019-cu il avqustun 5-də qondarma "Pan-Ermənistan oyunları"nın "açılış mərasimi" keçirilib. Ermənistan və ölkəmizin ərazilərində fəaliyyət göstərən cinayətkar qurumun iştirakı ilə keçirilmiş "açılış mərasimi"ndə Ermənistanın baş naziri Nikol Paşinyan çıxış edib.

Nikol Paşinyan çıxışı zamanı təmsil etdiyi ölkənin Azərbaycana qarşı hərbi işğal siyasəti apardığını bir daha nümayiş etdirərək, həyata keçirilən təcavüzü açıq şəkildə səsləndirməkdən belə çəkinməyib və Azərbaycanın beynəlxalq təşkilatlar və dünya ictimaiyyəti tərəfindən tanınan suveren ərazisi - Dağlıq Qarabağın Ermənistana aid olduğunu bəyan edib.

AZƏRBAYCAN ORDUSU



# "Hərbçilərimizə xidmət etməkdən qürur duyuram"

*Analar bəşəriyyətin bəzəyi, bizə həyat bəxş edən Tanrının özü qədər sirli və müqəddəsdirlər. Müqəddəsdirlər ona görə ki, onlar dünyaya bəşər övladı gətirməklə yanaşı, dünyanı qorumağa çalışan mələklərdir. Dünyamızın ən zərif və ən güclü xilaskar, mərhəmətli insanlarıdırlar. Dünyanı qorumaq üçün nəhəng dövlətlərə "Müharibələrə son qoyun!", - deyə ilk olaraq haqq səsini ucaldan analar olur. Analar tək öz övladlarını deyil, bütün bəşəriyyəti düşünür. Faciələrə sarsılır, amansız müharibələri lənətləyirlər. Analar dünyada sülhün, əmin-amanlığın carçılarıdırlar. Bu gün Azərbaycan anaları da dünyanın sülhpərvər anaları sırasında dayanaraq, 30 ildən artıqdır ki, torpaqlarımızda gedən müharibəyə, işğala "Son qoyulmalıdır" deyirlər.*

Hər dəfə cəbhə bölgəsində əsgər yeməkxanalarında çalışan ağ xalatlı ana-bacılarımızla görüşüb, onlarla söhbət apararanda ilk kəlmələri bu sözlər olur: "Allah dünyamızı salamat eləsin. Qara duman Vətənimizin başı üzərindən tezliklə çəkilsin. Övladlarımız sağ-salamat ata-analarının yanına qayıtsınlar". Onlar Vətənin müdafiəsində dayanan əsgərlərimizi, hərbi qulluqçularımızı öz övladları və doğmaları bilirlər. Sanki hazırladıqları hər bir xörəkdə isti ana ürəyinin təravəti duyulur. Əsgər yeməkxanası bir doğma ocağa, evə bənzəyir. Analar övladlarına dadlı, təamlı xörəklər bişirib, onların iştahla bu xörəkləri yeməsinə tamaşa edirlər. Bu mənzərənin dəfələrlə şahidi olmuşuq. O analardan biri də Pəri Paşayevadır. İllərdir ön xətdə torpaqlarımızı qoruyan əsgər və zabitlərimizə doğma övladlarıtək xidmət göstərir. Onlara qaynar ocaq başında ürəklərincə olan milli xörəklərimizi bişirir.

Xoş təbəssümlü çöhrəsi, qürurlu baxışları daxili aləminin zəngin olmasından xəbər verir Pəri ananın... Qarabağ müharibəsi Pəri ananın da taleyinə acı xatirələrlə dolu günlər yazıb. Torpaq həsrətlisidir. Doğulub boya-başa çatdığı, qədim tarixi ilə dünyada şöhrət tapan Cəbrayıl rayonu ermənilər tərəfindən işğal olunub. İslam mədəniyyətinə aid müqəddəs ziyarətgahların və ocaqların məkanı kimi tanınan doğma Hacılı kəndi erməni vandalizminin qurbanıdır. Hələ Cəbrayılda döyüşlər gedərkən ürəyindən keçirir ki, gedib hərbçi qardaşlarına yardım etsin, onlara yemək hazırlasın, dar gündə o da Vətənin dadına yetsin. Lakin Pəri ana bu arzusunu o zaman gerçəkləşdirə bilmir. Torpaqlar işğal olunur. İllər keçdikdən sonra o istəyini həyata keçirir. Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində əsgər yeməkxanasında aşpaz kimi hərbi qulluqçulara xidmət göstərməyə başlayır. Pəri Paşayeva altı aylıq aşpazlıq kursunu bitirib diplom alır.

Gecə-gündüz torpaqlarımızın keşiyində dayanan hərbçilərimizə xidmət etməkdən qürur duyduğunu deyən Pəri ana bizimlə süfrə arxasında söhbətə başladı: "Dünyada heç bir ana müharibə istəməz. İstəməz ki, bəşər övladı müharibənin qurbanı olsun. Ölkəmizdə illərdir müharibə gedir. Ermənilər torpaqlarımızı işğal edib. Mən bir ana kimi arzulayıram ki, tezliklə torpaqlarımız işğaldan azad olunsun, qaçqın, köçkün düşən camaatımız yurduna qayıtsın. Artıq bir neçə ildir, bizim rayonun Cocuq Mərcanlı kəndi işğaldan azad olunub. Dövlətimizin rəhbəri İlham Əliyevin göstərişiylə bu kənd yenidən bərpa olunub. Kəndin yerli sakinləri olan cocuq mərcanlılar ata-baba yurduna dönüblər. Bu əlbəttə ki, Ali Baş Komandanımızın rəhbərliyi altında, ordumuzun sayəsində mümkün olub. Prezidentimiz sağ olsun, orduya çox böyük qayğı göstərir. Hər dəfə Prezidentimiz, Müdafiə nazirimiz hərbi hissələrin yeməkxanalarına baxış keçirəndə əsgərlərlə bir süfrə arxasında oturub nahar yeməyinə qonaq olur, onlarla söhbət edirlər. Əsgər yeməkxanalarında bişirilən xörəklərdən razı qaldıqlarını bildirirlər. Elə bu günlərdə də Müdafiə nazirimiz ön xətdə yerləşən bölmənin yeni binasının açılışında olarkən əsgər yeməkxanasında hərbi qulluqçularımıza xidmət göstərən işçilərlə görüşdü. Yenə də əsgərlərlə bir süfrə arxasında nahar etdi. Xörəklərin



hazırlanmasından razı qaldığını dedi. Bizim borcumuz onlara yaxşı xidmət göstərməkdir. Onlar xalqımızın firavan yaşayışı üçün bu gün düşmənlə üzbəüz dayanıb Vətənimizi qoruyurlar. Hər bir əsgər bir ananın övladıdır. Xidmətə gəldikdən sonra isə bizim övladımız olur. Onlara ana qayğısı ilə yanaşırıq. Arzu edirəm ki, tezliklə müharibə qurtarsın, xalqımız firavan yaşasın. Əsgərlərimiz daha müharibə dövründə deyil, sülh dövründə hərbi xidmət keçsinlər."

Biz də sizin arzularınıza qoşuluruq, Pəri ana. Qürurlu Azərbaycan qadını, məğrur Azərbaycan anası, sənin arzularının gerçəkləşəcəyi gün uzaqda deyil!

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Növbəti reportajımız işğaldan azad olunmuş torpaqlarda reallaşacaq..!

Əziz, fədakar Azərbaycan əsgəri. Artıq neçə illərdir, səninlə ümid dolu bir görüşün həsrətindəydim. Bu gün o həsrətə son qoyulur. Yolboyu sevincliyəm, bilirəm ki, bu yol məni səngərə aparır. Elə bir məkana ki, ucalığa, ölməzliyə gedən yollar buradan başlanır. Düşmənlərimizin haqsız olaraq ələ keçirdiyi tarixi torpaqlarımıza nifrət dolu baxışlar buradan qarşı tərəfi süzür. O baxışlar deyir ki, üçrəngli bayrağımız həmin torpaqlarda dalğalanacaq. Adımız kimi inanırıq ki, mənim kimi yüzlərlə Azərbaycan övladını çəkib gətirən uzun-uzun əyri və haça yollar Ali Baş Komandanımızın rəhbərliyi ilə azad edəcəyiniz tarixi torpaqlarımızda dalğalanacaq üçrəngli bayrağımızın altında kəsişəcək. Yaxşı bilirik ki, sabahımızın ən işıqlı, ən aydın yolları buradan - hərbi qulluqçularımızın müqəddəs məkanına çevrilmiş səngərdən keçir. Səngər sizin üçün müqəddəsdir, çünki burada Vətən eşqi, Vətən sevgisi var. Bizim üçün müqəddəsdir ona görə ki, ürəyi Vətən eşqi ilə döyünən Azərbaycan oğulları torpaqlarımızın keşiyindədirlər.

"Konflikt jurnalistikası məktəbi"nin 10 günlük təlimlərində



olduğum müddətdə başa düşdüm ki, sən mənim düşündüyümdən daha vətənpərvər, daha dözümlü, daha cəsur, daha güclüsən. Sizinlə isti bir yay günündə görüşürük. O baxışlardakı cəsarət, mərdlik, düşmənə nifrət hissləri gözlərimdən yayınmır. Qorxusu olmayan gözlərə baxmaq qürurvericidi. Bir daha sizin sayənizdə tam təhlükəsiz şəraitdə yaşadığımızı dərk etdim.

Torpağın hər qarışı müqəddəsdir. Qəhrəmanın qanı qarışan müqəddəs torpağa ayaq basmaq isə hər birimiz üçün şərəfdir. Milli qəhrəmanlarımızdan birinin vaxtilə xidmət etdiyi postda olmaq, onun xidmət etdiyi yerdən müşahidə aparmaq, dincəldiyi otağı seyr etmək, üzərində gəzdiyi torpağı ovuclamaq mənim üçün ən müqəddəs torpaqları ziyarət etmək qədər şərəfli idi. O postdan gətirdiyim bir ovuc torpağı müqəddəslik rəmzi kimi bu gün saxlayıram.

On gün müddətində hərbçi dostlar qazandıq. Kəşfiyyatçı dostlarımız bizə "yıxılaraq böyüməy"i öyrətdilər. Təcrübələrini bölüşdülər, çətin situasiyalarda ac qalmamağı öyrətdilər və bəzi gizli məqamlara aydınlıq gətirdilər. Azərbaycan əsgəri, zabiti gözümdə dağlar qədər böyüdü.

Zirvəyə qalxarkən bir qədər çətin anlar yaşadım. Ancaq kəşfiyyatçı dostum hər məqamda ruhdan düşməməyi, yarı zarafat, yarı gerçək sözləriylə mənim bacara biləcəyimi deyirdi. Bacardım... Azərbaycan əsgərinin sayəsində... Xidməti vəzifəni yerinə yetirərkən gördüklərim sənin həqiqətən fövqəltəbii güclərin olmadan qəhrəman olduğunu mənə öyrətdi.

Üç gün müddətində çadırlarda qalaraq özümüzü çətin məqamlara alışdırmağa çalışdıq. Bu zaman kəsiyində zabitlər öz təcrübələrini paylaşaraq bizə kömək etməyə çalışdılar.

Jurnalist dostlarımla birgə tanklarla əvvəlcədən müəyyən olunmuş ərazilərə istiqamət aldıq. Bizə təlim döyüşləri nümayiş olundu. Təlim vaxtı ərazidə yaşayan ailə diqqətimi çəkdi. Bu insanlar tankın tam yaxın məsafədən keçməsinə baxmayaraq, adi hal kimi qarşıladılar. Bir daha insanın əzminə heyran oldum.

Hərbi hospitalda isə qaranlığın bağrını yaran ağ xalatlı həkimlər səhhətimlə ciddi şəkildə maraqlanıb əllərindən gələnin ən yaxşısını etməyə çalışdılar.

Bu on gün müddətində əsgər süfrəsinə qonaq olduq. Suyunuzu içdik, çörəyinizi yedik. Hərbi hissəni tərk edərkən qürurlu baxışlarınız və əl etməyiniz bizi bir daha bu torpaqlara yenidən gəlməyə ümidləndirdi. Növbəti səfərimizdə ümid edirik ki, sizinlə bağlı reportajımız işğaldan azad olunmuş torpaqlarda reallaşacaq..!

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun**
**III kurs tələbəsi**

*Bu gün Azərbaycan Ordusunda şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji hazırlığı da rəhbərliyin daim diqqət mərkəzindədir. "Açıq qapı" günlərində əsgərlər üçün onları görməyə gələn valideynləri əvəzolunmaz hədiyyədir. Valideynlərin ön xətdə yerləşən bölmələri ziyarət etməsi (xüsusilə bayram günlərində), şəxsi heyət üçün yaradılan şəraitlə tanış olması, əsgərlərin qayğıları ilə maraqlanması hər bir gənc əsgərimizə ruh yüksəkliyi aşılayır. Həmçinin Müdafiə nazirinin tapşırığına əsasən, mütəmadi olaraq birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində tədbirlər təşkil olunur ki, belə tədbirlər günümüzün Vətən müdafiəçiləri - əsgərlərimizin vətənpərvərlik ruhunun möhkəmləndirilməsilə yanaşı, onlara əlavə stimul - motivasiya verir. Hərbi qulluqçunun döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji vəziyyəti də yüksək səviyyədə olmalıdır ki, o qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gəlsin.*

# Hərbi hissədə mədəni-kütləvi tədbir keçirildi



Bu günlərdə Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Müdafiə Nazirliyi və Bakı şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə "N" hərbi hissəsində şəxsi heyətin asudə vaxtının səmərəli təşkilinə həsr olunmuş mədəni-kütləvi tədbir keçirildi. Tədbirdə hərbi hissənin şəxsi heyəti, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin, Bakı şəhər Mədəniyyət Baş İdarəsinin nümayəndələri iştirak edirdilər.

Ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Polkovnik-leytenant Zaur Həmidov təşkil olunan mədəni-kütləvi tədbirin gənc əsgərlərimizin vətənpərvərlik duyğularının gücləndirilməsində mühüm əhəmiyyətə malik olduğunu vurğuladı. Zabit Azərbaycan Ordusunun inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərindən danışaraq bildirdi ki, müasir ordu quruculuğu prosesi məhz onun adı ilə bağlıdır. Bu gün Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu daha da güclənir, döyüş qabiliyyətini durmadan artırır. Zabit onu da qeyd etdi ki, ordumuzun şəxsi heyəti ölkəmizin ərazi bütövlüyünü istənilən an bərpa etməyə qadirdir.

H.Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov müasir ordu quruculuğunda görülən işlərdən danışdı. Zabit bildirdi ki, hərbi qulluqçuların sosial-məişət şəraiti əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşdırılıb. Hərbi hissələrdə şəxsi heyətin xidmətinin düzgün təşkil edilməsi üçün hər cür şərait yaradılıb ki, bu da əsgərlərimizin mənəvi-psixoloji vəziyyətinə müsbət təsir edən amillərdəndir. Zabit onu da qeyd etdi ki, təşkil olunan tədbirlər hesabına hərbi qulluqçular ictimaiyyətin orduya olan münasibətini, ehtiramını daha dərindən hiss edirlər. Bu da stimulverici faktordur və xalqın ordusuyla həmrəyliyinin ən bariz təcəssümüdür.

Hərbi hissənin zabiti polkovnik-leytenant Rahib Vəzirov şəxsi heyətin vətənpərvərlik hissinin yüksəldilməsi naminə təşkil olunmuş tədbirin ərsəyə gəlməsində əməyi keçən hər bir kəsə minnətdarlığını bildirdi. Qeyd olundu ki, hər bir vətəndaş belə vətənpərvərlik tədbirlərinin kütləvi hal almasında maraqlı olmalıdır. Zabit milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində ölkə rəhbərliyi tərəfindən görülən işlərin şəxsi heyətin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında əvəzsiz rol oynadığını da vurğuladı.

Sonda tədbirin ərsəyə gəlməsində əməyi keçən Rüfət Mamayev vətənpərvərlik hissinin aliliyindən danışdı, Vətənə olan müqəddəs borcunu ödəyən əsgərlərimizə çətin və şərəfli xidmətlərində uğurlar arzuladı və bildirdi ki, ordumuz xalqımızın qürur yeridir. O, qeyd etdi ki, torpaqlarımızın müdafiəsində dayanan oğullarımız müqəddəs vəzifəni yerinə yetirərək xalqımızın firavan yaşaması üçün gecə-gündüz xidmət aparırlar. "Vətənpərvərlik hissi ailədə formalaşsa da, əsgəri xidmət dövründə daha da möhkəmlənir. Hər bir valideynin ali arzusu Vətənə, xalqa, millətə layiqli övlad yetişdirməkdir. Bu gün ordu sıralarında xidmət edən əsgərlərimizin əsl vətənpərvər ruhda yetişməsi üçün zabitlərimizin də böyük əməyi var".

Tədbirin bədii hissəsində Bakı şəhər Mədəniyyət Baş İdarəsinin yaradıcı kollektivi şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədilə əsgərlər qarşısında musiqili konsert proqramı ilə çıxış etdi.

Təşkil olunan mədəni-kütləvi tədbirdə fəal iştirak etdiklərinə görə H.Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin və Bakı şəhər Mədəniyyət Baş İdarəsinin kollektivinə hərbi hissə komandiri adından fəxri fərmanlar təqdim olundu. Sonda hərbi hissənin şəxsi heyəti ilə xatirə şəkli çəkildi.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# Rusiya Federasiyasının hərbi ansamblı konsert proqramı ilə çıxış etdi



*V Beynəlxalq Ordu Oyunları çərçivəsində keçirilən "Dəniz Kuboku-2019" müsabiqəsinin açılışına həsr olunmuş təntənəli mərasimdə iştirak etmək üçün ölkəmizə gələn Rusiya Hərbi Dəniz Donanması Qara Dəniz Donanmasının mahnı və rəqs ansamblı Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində uğurlu çıxışlarından sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin qonağı oldu və şəxsi heyət qarşısında rəngarəng konsert proqramı ilə çıxış etdi.*

Rusiya Hərbi Dəniz Donanmasının ilk mahnı və rəqs ansamblı olan bu yaradıcı qurumun tarixi barədə tamaşaçılara ətraflı məlumat verən Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani bildirdi ki, Qara Dəniz Donanmasının mahnı və rəqs ansamblı 1932-ci ilin baharında SSRİ hərbi və dəniz işləri xalq komissarı Kliment Voroşilovun əmri ilə yaradılıb. "Böyük Vətən müharibəsi illərində ansamblın üzvləri Odessa, Sevastopol, Novorossiysk şəhərlərinin müdafiəçiləri, eləcə də SSRİ-nin azad edilmiş şəhərləri, həmçinin Rumıniya, Bolqarıstan əhalisi qarşısında 2000-dən çox konsert veriblər. Müharibədən sonrakı illərdə bu böyük kollektiv, geniş repertuar və yüksək ifaçılığı ilə şöhrət qazanıb. Bir çox bəstəkarların yaradıcılıq emalatxanasına çevrilib. Ansamblın üzvləri dünyanın bir çox ölkələrində qastrol səfərlərində olub və hər yerdə maraqla qarşılanıblar. Ansambl Rusiya Federasiyasının mahnı və rəqs ansamblları arasında keçirilən müsabiqənin qran-pri laureatı olub və Avropa ölkələrinin ordularının yaradıcı kollektivləri içərisində birincilik qazanıb.

Ansambl ikinci dəfədir ki, respublikamızın qonağı olur. Onlar ötən il də hərbçilərimiz qarşısında rəngarəng proqramla çıxış ediblər".

Hələ də ötənilki səfərin təəssüratlarını unutmayan ansamblın rəisi Aleksey Kostyanikov yenə də azərbaycanlıların qonaqpərvərliyi ilə qarşılandıqlarını və onların doğma şəhərləri uğrunda canlarından, qanlarından keçən, sinələrini faşizm güllələrinə sipər edən qəhrəman ata-babaların nəvə-nəticələri qarşısında müharibə illərinin mahnılarını ifa etməkdən qürur duyduqlarını vurğuladı. Müslüm Maqomayev kimi dünya şöhrətli sənətkarın Vətənində ölməz sənətkarın "Mavi əbədiyyət" mahnısını ifa etməsini ansamblın solisti Aleksey Vladimiroviç ifaçılığın unudulmaz anı hesab etdiyini dedi.



Mahnılar, rəqslər bir-birini əvəz etdikcə kursantların alqışları salonu bürüdü. Konsertin sonunda Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təşəkkürü yaradıcı kollektivə çatdırıldı. Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani ansamblın hər bir üzvünə, eləcə də təntənəli açılış mərasiminin aparıcılarından biri olan Mixail Yuriyeviçə Müdafiə naziri adından hədiyyələr bağışladı.

**Kapitan**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

## Mövzu: Əsgərin döyüşə psixoloji hazırlığı.

**Suallar:**
**1. Əsgərin psixoloji hazırlığının məzmunu.**
**2. Döyüşə psixoloji hazırlığın əsas üsulları.**

*Əsgərin psixoloji hazırlığının məzmunu*

Əsgərin psixoloji hazırlığı:
- döyüşdə fəal, təşəbbüskar, fədakarcasına hərəkət etmək bacarığının qazanılmasını;
- fiziki və psixoloji gərginliyə tab gətirməyi, qorxu hissi ilə mübarizə aparmağı;
- döyüş tapşırıqlarını yerinə yetirmək üçün zəruri olan emosional - iradi keyfiyyətləri;
- psixoloji dayanıqlığın formalaşdırılması üzrə fəaliyyətlər kompleksini təşkil edir.

Təcrübə göstərir ki, əsgər öz döyüş hazırlığını tələb olunan anda lazımi dərəcədə həmişə göstərə bilmir. Hələ dünən gündəlik, sakit xidməti şəraitdə yaxşı və əla yerinə yetirilən hərəkətlər bugünkü döyüşdə ya yarımçıq alınır və yaxud heç alınmır. Bu əsgərin psixoloji cəhətdən kifayət qədər hazırlıqlı olmadığının göstəricisidir. Əsgərin psixoloji hazırlığı müasir tələblərə cavab verməli və ordunun döyüş hazırlığı və döyüş qabiliyyətinin yüksəldilməsinə yönəldilməlidir.

Döyüş əsgərin öz potensiallarını cəld göstərə bilməsi bacarığına çox sərt tələblər irəli sürür. Bunun dəyəri isə ya həmin əsgərin özünün və yaxud yoldaşlarının həyatı, döyüş tapşırığının yerinə yetirilməsi ilə ölçülür.

Əsgərin verilmiş tapşırığı bacardığı səviyyədə (döyüş ustalığını göstərməklə) yerinə yetirməsi daxili amillərdən - hər şeydən öncə insanın əqidəsindən, onun təhlükəli, gözlənilməz, qeyri-müəyyənlik və vaxt qıtlığı şəraitlərində səmərəli hərəkət etmək qabiliyyətindən, verilmiş məqamda əsgərin emosional vəziyyətindən və səhhətindən asılıdır.

Sadalanmış faktorların məcmusu "psixoloji hazırlıq" adlandırılır.

Əsgərin döyüşə psixoloji hazırlığı bölmənin döyüş fəaliyyətinə dərhal başlaya bilməsinin əsas tərkib hissələrindən biridir. Bu, birinci növbədə Vətəni, doğmaları və əzizlərinin taleyi barədə əsgərin məsuliyyət hissini, özünə, öz yoldaşlarına, silahına, döyüş texnikasına inamın olmasını; ikinci növbədə isə mübarizə aparmaq, özünü sınaqdan keçirmək, öz zəif cəhətlərini üstələmək, düşmən üzərində qələbə qazanmağı nəzərdə tutur.

Əsgərin döyüşə psixoloji hazırlığının əsas əlamətləri aşağıdakılardır:
- tələskənlik və qapalılığın olmaması, hesablanmış və rəvan davranış;
- əmr və tapşırıqların səhvsiz və dəqiq yerinə yetirilməsi;
- normal fizioloji vəziyyət (nəbzin tezliyi, nəfəs alma, sifət rəngi və s.)

Döyüşə psixoloji hazırlığın 3 dərəcəsi təsnif olunur:
- aşağı;
- orta;
- yüksək.

Aşağı dərəcəli psixoloji hazırlığın təzahür cəhətləri: əsgər özünə inanmır, mübarizə aparmağa can atmır, qərarsızdır, həddindən artıq tələskən və yaxud qapalıdır, ən sadə tapşırıqların yerinə yetirilməsində səhvlər buraxır.

Orta dərəcəli psixoloji hazırlığın xarakterik əlamətləri: özünə və yoldaşlarına inanır, lakin cəsarətli hərəkətləri, mübarizə aparmaq cəhdləri hələ kifayət qədər deyildir. Əsgər verilən tapşırıqların yerinə yetirilməsində kiçik səhvlərə yol verir, fizioloji vəziyyəti normaya yaxındır.

Yüksək səviyyəli psixoloji hazırlığı isə mübarizə aparmaq arzusu, şübhələrin yoxluğu, özünü sınamaq istəyi və düşmən üzərində qələbənin qazanılması fərqləndirir. Psixoloji hazırlığın bu səviyyəsində əsgər uzun müddət ola bilməz. İnsan fizioloqiyasının və psixikasının mühafizə mexanizmləri işə düşür.

Buna görə də əsgər üçün çox vacibdir ki, döyüş qabağı özündə və yoldaşlarında orta səviyyəni saxlasın. Döyüşün gedişatında isə psixoloji hazırlığın yüksək səviyyəsi qoşulmalıdır.

Döyüş təlimi prosesində hər bir əsgər öz döyüş və psixoloji hazırlığını təkmilləşdirməlidir. Döyüşə hazırlığın faydalı vasitələrindən biri kimi əsgərin öz hərəkətlərinin ardıcıllığını əvvəlcə səhv etmədən asta-asta, getdikcə sürətini artıraraq ürəyində deməsi məsləhət görülür. Əsgər şəraitə fikrən o qədər öyrəşir ki, özündən asılı olmayaraq hərəkət etməyə başlayır. Bu isə düşüncə ilə davranış arasında möhkəm əlaqənin yaranması deməkdir.

Dərhal başlanacaq döyüş əməliyyatlarına psixoloji hazırlığın saxlanılması üçün psixoloji özünü-tənzimləmə üsullarından istifadə oluna bilər.

Belə ki, dəqiqədə 140-150 addımlıq gəzinti gümrah əhvalruhiyyə yaradır. Addımın astadan sürətliyə və əksinə doğru növbə ilə dəyişməsi isə diqqətin toplanmasına və artmasına səbəb olur. Yuxu ilə mübarizə aparmaq üçün əl dərisinin çimdiklənməsi, başın adamın özü tərəfindən massaj edilməsi və insanın aktivliyini artıran digər hərəkətlər geniş tətbiq olunur. Yuxulama insanda yorğunluğun, psixi və fiziki taqətsizliyin səbəbi olduğuna görə döyüşə psixoloji hazırlığın daxili düşməni sayılır.

*Döyüşə psixoloji hazırlığın əsas üsulları*

Döyüşə psixoloji hazırlığın saxlanılması üçün özünütənzimləmənin əsas üsulları aşağıdakılardır:
- özünəinam və özünətəlqin,
- öz təxəyyülünü idarə etmə,
- nəfəs almanı və əzələləri tonusda saxlamaq.

Özünəinam - əsgərin hazırlığını yüksək səviyyədə saxlamağın vacibliyini özünə sübut etməsidir. Döyüş növbətçiliyini, qarovul xidmətini çəkən və yaxud digər döyüş tapşırığını yerinə yetirən əsgərdə onu yayındıran fikirlərin, istəklərin yaranması nəticəsində sayıqlığını itirməsinin necə dəhşətli hadisələr, nəticələr törədə biləcəyini aydın təsəvvürünə gətirməlidir. Bu yerdə Nizamnamələrin tələblərini, rəislərin xəbərdarlıqlarını, xidmətin ibrətamiz nümunələrini mütləq yada salmaq lazımdır.

Özünətəlqin - özünə inam kimi, əsgərin əsas təsir vasitəsi olaraq sözdən istifadə etməsilə şüurlu şəkildə əldə olunur. Özünətəlqin insanın özünə və imkanlarına olan inamın gücünə onun psixi vəziyyətini dəyişə bilər. Məsələn: gecə xidmət çəkən əsgər yuxuluqla oyaqlıq arasında olduğu üçün bəzi hallarda sanki tormozlanmış vəziyyətə düşür. Əsgərin psixikasının məhz bu vəziyyəti istənilən özünətəlqinə daha həssas olur. Ona görə də yuxulamağa və yaxud rahatlıq tapmağa olan ən kiçik cəhd belə yerindəcə dəf olunmalı və rədd edilməlidir. Əks təqdirdə şərait faciə ilə nəticələnə bilər.

Sayıqlığın itirilməsi çox ağır nəticələrə səbəb olur. Buna görə də əsgərlərdə gümrahlığın və aktivliyin saxlanılması üçün hərbi psixoloqlar çox dəqiq və qısa özünü təlimat forması tövsiyə edirlər. Yuxusu gələn, taqətdən düşən, sayıqlığını itirən əsgər bu ifadələri tez-tez işlətməlidir: "Mən diqqətimi toplayıram", "Mən sakitəm və özümə inanıram", "Mən öz davranışımı və vəziyyəti tam nəzarətdə saxlayıram".

Bu özünü təlimatlar ehtiyac duyulan vəziyyətin məxsusi modellərini təsvir edir. Əsgərin qabaqcadan hazırladığı sözlü düsturlar, dəfələrlə təkrar etmə yolu ilə şüuraltına yerləşdirilir və yubatmadan onun vəziyyətini müəyyən etməyə başlayır.

Özünətəlqin edərkən bəzi qaydalara riayət etmək vacibdir:

1. Özünətəlqin düsturlarını 5-6 dəfə ürəyinizdə təkrar etməli, onun məzmununa diqqət yetirməli və ehtiyac duyulan vəziyyəti təsəvvür etmək lazımdır;

2. Sözlü düsturlar qısa, aydın olmalı və konkret şəraitdə onları yerinə yetirmə imkanları şübhə doğurmamalıdır. Burada heç bir özünütənqidə yol vermək olmaz. Yalnız öz qüvvələrinizə tam inam təxirə salınmaz nəticələr verə bilir.

3. Sözlü düsturlar yalnız təsdiqedici formada işlənməli, yəni inkaredici ifadələrə yol verilməməlidir. Məsələn: "Mən yatmaq istəmirəm" özünətəlqini əks təsir verə bilər. Çünki istəyirəm əvəzinə deyilən istəmirəm ifadəsindəki "yi"-ni əvəzləyən "mi" şəkilçisi adətən şüuraltında nəzərə çarpmır. Bu cür hallarda yuxunu xatırlamaq ümumən olmaz. Əksinə, demək lazımdır ki: "Mən gümrah və çalışqanam". Yaxud "Mən yatmaq istəmirəm" ifadəsinin əvəzinə "Mən gümraham" ifadəsini beyinə yerləşdirmək lazımdır.

Təxəyyülün (fantaziyanın) idarə edilməsi isə özünətəlqinin sözlü düsturlarının təsirini əhəmiyyətli dərəcədə artıra bilər. Döyüş postunda təxəyyülünüzü işlətməklə, öz fəaliyyətinizin arzuolunan nəticəsinin obrazını yaratmaq mümkündür. Lazımdır ki, sözlü obrazların məzmununu emosiyalarında canlandırasan. Özünüzə "Mən gümraham" ifadəsini təlqin edərkən, səhər tezdən dan şehinin, təravətinin bədəninizi necə üşütməsini, əzələlərinizin necə gərilməsini təsəvvürünüzə gətirin. Siz o halı hiss etməyə çalışsanız, təsirini anındaca görəcəksiniz. Hərəkətin nümunəsini daha aydın təsəvvürünüzə gətirməklə, sizə özünüzü etalona (ideal döyüşçü, hərəkətlərin qüsursuz icrası) bənzətmək məsləhət görülür. Yəni özünüzü "ən sayıq döyüşçü" rolunda hiss etməyiniz üçün onun ideal hərəkətlərini təsəvvürünüzə gətirin və yamsılama prinsipinə uyğun təkrar edin. "Mən ən sərrast atıcıyam", "Mən ən sayıq kəşfiyyatçıyam" kimi özünətəlqinlər müvafiq idealları, nümunələri təsəvvürə gətirməklə, əsgərin əsl atıcı, kəşfiyyatçı obrazına çevrilməsinə kömək edir. Öz təxəyyülünüzü idarə etməklə döyüş fəaliyyətinin bu və ya digər nəticələrini, postda mümkün olan müxtəlif vəziyyətlərin inkişafını daim beyində "hərlətmək" (üzərində fikirləşmək) olar. Məsələn: "Əgər divarın o üzündə düşmən varsa" deməli, dönməmişdən qabaq divardan 2-3 metr aralanmalı və fikrimi toplamalıyam. Bu cür fəndlər döyüşdə əlverişsiz nəticələri (arzuolunmaz sonluqları) qabaqlamaqla, gözlənilməz hallara hazır olmaq imkanları verir. Yaxşı olardı ki, qabaqcadan ekstremal şəraitlərdə mümkün hərəkətlərin planı qurulsun və beynizdə fikrən "icra edilsin".

Diqqətin idarə olunması təxəyyüllə sıx əlaqəlidir. Diqqətin hansı səmtə yönəlməsi onun sayıqlığına güclü təsir göstərir. Şüurlu nəzarətdən kənarda olan diqqətin döyüş tapşırığı ilə heç bir əlaqəsi olmayan obyektə keçirilməsi insanı yayındıra bilir. Bu isə insan psixikasının daha bir sirridir. Əgər ona məhəl qoymarıqsa, daha ağır nəticələr qazanarıq. Köhnə bir fəndi misal gətirək. Düşmən qarovulçunu, saatdarı yayındırmaq məqsədilə kənara bir daş atır və qəfildən onun gözləmədiyi yerdən üstünə tullanır. Belə olan hallarda əsgər üçün vacibdir ki, qəfildən güclü qıcıqlandırıcı (təhlükəli səs, ekranın sönməsi, posta yaxın insan və yaxud heyvan) peyda olduqda bütün diqqətini yalnız bu obyektə yönəli saxlamasın. Eyni vaxtda daha əsas ola biləcək digər istiqamətləri də müşahidə etsin. Bunun üçün isə qabaqcadan diqqətin ən təhlükəli istiqamətlərin hər birinə növbə ilə keçirilməsi planı tərtib olunmalıdır. Yalnız bu qaydalara riayət etməklə, şərait üzərində nəzarəti saxlamaq mümkündür. Döyüş şəraitində isə diqqəti döyüş tapşırığına aidiyyəti olan obyektlər üzərində saxlamaqla, ikinci dərəcəli qıcıqlara yayınmamaq tövsiyə olunur.

Nəfəs almanın idarə olunması və əzələlərin tonusda saxlanılması sırf psixoloji fənd sayılmır. Lakin nəfəs almanın dərinliyi və tezliyi, bədən əzələlərinin gərilmə dərəcəsi əsgərin döyüş şəraitindəki psixi vəziyyətini əhəmiyyətli dərəcədə təyin edirlər. Əsəb gərginliyinin götürülməsi üçün sakitləşdirici nəfəs alma fəndi təklif olunur. Dərindən nəfəsinizi alır, mümkün qədər nəfəsinizi saxlayıb və bacardığınız qədər asta sürətlə buraxırsınız. Psixi halınızı sakitləşdirmək üçün sizə bu fəndi 5-7 dəfə təkrar etmək lazımdır. Bundan sonra düşməni uzun müddətli müşahidə etmək üçün zehniniz açılacaq, iradəniz səfərbər olunacaq və əzələlərinizdə təzə qüvvə əmələ gələcəkdir.

Əzələ gərginliyi əsəb fəallığını xeyli dərəcədə şərtləndirir və deməli, əsgərdə səfərbər olmaq hissinin və gümrahlığın yaranmasına səbəb olur. Əzələnin boşaldılması isə əksinə, əsgərin psixikasına sakitləşdirici və tormozlandırıcı təsir göstərir. Ona görə də döyüşü gözləmə vaxtı bədən əzələlərini gərilmiş və elastik vəziyyətdə saxlamaq lazımdır. İsidilmiş aktiv əzələlər əsgərin döyüşə psixoloji hazırlığını yüksəldir.

Beləliklə, döyüş təlimi əsgərə hərbi biliklər qazanmaq, özündə döyüş səriştəsi və bacarıqlarını formalaşdırmaq imkanı verir. Bu isə özünəinamın əsasıdır. Psixoloji hazırlıq təlimlərinə isə onda döyüş fəaliyyətlərinə psixoloji cəhətdən dərhal başlamaq qabiliyyəti yaradır.

**İdeoloji İş və
Mənəvi-Psixoloji
Təminat İdarəsi**

# Vətənimizin müdafiəsi zamanı şəhid olmuş şəxslərin övladları üçün yay məktəbi təşkil edilib

<u>*Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Ailələrə Sosial Dayaq İctimai Birliyi (İB) "Şəhid ailələrinin uşaqları üçün yay məktəbinin təşkili" adlı layihə həyata keçirir.*</u>



İB-dən AZƏRTAC-a bildirilib ki, layihə çərçivəsində Mingəçevirdə və ətraf ərazilərdə yaşayan şəhid ailələrinin uşaqları üçün iki həftəlik yay məktəbi təşkil olunub. Yay məktəbi zamanı şəhid övladları üçün maraqlı məşğələlər, intellektual oyunlar keçirilir.

Vətənin müdafiəsində şəhid olmuş şəxslərin övladları üçün yay məktəbi təşkil etməkdə əsas məqsəd onların tətil dövründə asudə vaxtlarının səmərəli keçməsinə, bilik və bacarıqlarının artırılmasına nail olmaqdır.

Layihənin vətənpərvərlik mövzusuna həsr olunan ikinci tədbiri avqustun 7-də keçirilib. Qarabağ müharibəsi könüllülərinin iştirak etdikləri tədbirdə veteranlarımız keçirdikləri məşəqqətli müharibə günləri ilə bağlı xatirələrini uşaqlarla bölüşüblər.



Sonra müharibə iştirakçıları uşaqların suallarını cavablandırıblar.

Şəhid ailələrinin övladları ilə veteranlar arasında maraqlı müzakirələr aparılıb.

Məktəblilər üçün, həmçinin maraqlı oyunlar, gəmi ilə Kür çayında gəzinti təşkil olunub.

## Ermənistan ordusunda zabitlərin əsgərlərə qarşı zorakılıqları davam edir

AZƏRTAC Ermənistan KİV-lərinə istinadla xəbər verir ki, hərbi hissənin bir neçə zabiti barəsində cinayət işi başlanıb, digərləri müxtəlif cinayətlərə görə məhkum edilib. Amma onlar xidmətdən azad olunmayıblar və hələ də hərbi hissədə qulluq edirlər. Bu il iyunun 12-də gecə saatlarında mayor Faxradyan əsgərləri yerə yıxaraq onları tapdalayıb. O, əsgərləri "Yat" komandası verildikdən sonra kazarmanın yataqxanasında yemək yedikləri üçün cəzalandırıb. Əsgərləri yemək yeyərkən yaxalayan mayor onlardan üçünü - kiçik serjant Mxitar Sarkisyanı, Sergey Qriqoryanı və Narek Petrosyanı döyüb. Səhər saat 7.30-da isə o, polkun qarşısında Poqosyanı və daha beş hərbçini sıraya düzüb. Butulka ilə kiçik serjant Poqosyanın başına və sifətinə zərbələr endirən mayor digərlərinə uzanmağı əmr edib və onları tapdalayıb.

Bu əməllərinə görə ötən ilin avqustunda məhkəmə mayorun barəsində başqa yerə getməmək barədə iltizam tədbiri barədə hökm çıxarıb. II yarım davam edən istintaq dövründə hərbi prokurorluq mayoru təcrid etməyib və o, xidmətini davam etdirib. Nəhayət, bu ilin fevralında Gorus məhkəməsi mayor Faxradyanı dörd il müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edib. Lakin onun cəzası şərti cəza ilə əvəzlənib. Bu qərar qəbul olunarkən polk komandirinin təqdim etdiyi müsbət xarakteristika əsas götürülüb. Ancaq hökmdən cəmi bir neçə ay sonra Faxradyan yenə əsgəri döyüb və iş hərbi prokurorluğa göndərilib. Amma mayor yenə də məhkum edilməyib. Bu dəfə də onun barəsində başqa yerə getməmək haqda iltizam tədbiri seçilib.

Cinayətkar mayor Faxradyan prokurorluğun, hakimlərin, komandirlərinin, polkovnik Armen Gözəlyanın, müdafiə naziri Davit Tonoyanın tam himayəsi altındadır. Madagizdəki hərbi hissədə zorakılıq və cinayətlər isə davam edir.

<u>*Həyatda uğur qazanmaq, cəmiyyətə yararlı vətəndaş olmaq, işlədiyin müəssisədə hörmət qazanmaq üçün seçdiyin peşəni kamil bilməlisən. Fərqi yoxdur, hansı sahədə çalışırsan, əsas odur ki, peşənin sirlərini dərindən öyrənəsən.*</u>

tana qədər yolların sərt döngəli, daşlı-kəsəkli olması sürücünün məsuliyyətini daha da artırır. Təkərin altında qalan daşların xışıltısı, ətrafa baxanda gördüyün mənzərə bir anlıq ehtiyatsızlığın nəyə səbəb olacağını açıq-aşkar hiss etdirir. Aşırımları keçəndə sanki aşağı yuvarlanacağını hiss edirsən. Lakin sürücünün peşəkarlığı bizdə rahatlıq yaradır. Sürücünün təcrübəsi və bacarığı həyəcanımıza son qoyur. Bu yerlərə yaxşı bələd olduğunu deyən sürücü, bu çətin yolları hər gün gedib-gəldiyini vurğuladı. Bizi ən qısa zamanda Vətən müdafiəçilərinin görüşünə çatdıracağını dedi...

...Səngərdən qayıtdıqdan sonra Elməddinlə söhbətləşib, ona minnətdarlıq edirəm. O maşına qulluq edir, uzun yol gedən "UAZ"-ın mühərrikinə göz gəzdirir, yağının, suyunun qaydasında olub-olmadığını yoxlayır, bir sözlə, hər bir detalına diqqət yetirirdi. Maşına elə qayğı göstərirdi ki, onu işindən ayırmaq istəmirsən. Elvin söhbətində dedi ki, həm Vətənə, həm də peşəmə olan sevgim işimə bağlılığımı daha da artırır. "Peşənə nə qədər sevgi bəsləsən, o qədər uğur qazanarsan", - deyən Elvin hərbçi və sürücü olmağın sevincindən söz açdı.



# "Vətənə, ordumuza xidmət etdiyim üçün qürurluyam"



Elməddin də öz peşəsinin kamil bilicisi olan Vətən oğullarındandır. Düşmənlə təmas xəttində yerləşən bölmədə ezamiyyətim zamanı onu yaxından tanıdım. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elməddin Məmmədov hərbi hissədə sürücü vəzifəsində xidmət edir. Əsgəri xidmətini başa vurduqdan sonra bacarıqlı sürücü yenidən ordu sıralarına qayıdaraq sevdiyi peşəsi ilə məşğul olur. Hərbi hissə komandirindən son təlimatları aldıqdan sonra E.Məmmədovla səngərə yola düşürük. Son mənzilə ça-

"Uşaqlıqdan sürücülük peşəsinə xüsusi marağım olub. Maşın sürməyə hər zaman həvəsli olmuşam. Ona görə də sürücülüyü hər incəliyinə kimi öyrənmişəm. Maşını idarə etməklə yanaşı, texniki xüsusiyyətlərinə yaxşı bələdəm, qəflətən hər hansı bir nasazlıq baş verdikdə yerindəcə aradan qaldırmağı bacarıram. Qismət elə gətirdi ki, həm şərəfli peşə sahibi oldum, həm də sevdiyim ixtisas üzrə xidmətə təyin olundum. Bu cəhətdən özümü şanslı sayıram ki, həm əlində silah hər an işğaldakı torpaqlarımızın azadlığı uğrunda döyüşə atılmağa hazır olan hərbçiyəm, həm də sevdiyim işlə məşğulam. Bu şərəfə nail olduğum üçün çox sevincliyəm. Yaxşı bələd olduğum bu bacarığımla Vətənə, ordumuza xidmət etdiyim üçün qürurluyam".

Hər addımda ordumuzun texniki təminatının yüksək səviyyədə olduğunu görürük. Müasir texnika və maşınlar hərbçilərimizin istifadəsinə verilib. Bununla bərabər, onları ustalıqla idarə edən, texniki xüsusiyyətlərinə yaxşı bələd olan, vaxtlı-vaxtında qulluq edən səriştəli heyətin də olduğuna əyani şahidik.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Almaniya Tiger döyüş helikopterlərinin istismarını dayandırır



Almaniya Federativ Respublikasının Silahlı Qüvvələri təhlükəsizlik tədbiri qismində Eurocopter Tiger döyüş helikopterlərinin istismarından müvəqqəti imtina etmək qərarına gəlib.

Bundesverin yaydığı məlumata görə, buna səbəb bərkidici boltların mümkün qüsurudur. "Təhlükəsizlik Bundesver üçün prioritetdir. Bu səbəbdən Tiger döyüş helikopterlərinin istifadəsini dayandırmaq sərəncamı daxil olub", - mətbuat üçün açıqlamada belə deyilir.

AFR Silahlı Qüvvələri mümkün nöqsan barədə informasiyanı hərbi-sənaye kompleksinin nümayəndələrindən alıb. Bundan sonrakı addımlar haqqında qərar Bundesverin iclasında qəbul olunacaq. Spiegel jurnalı yazır ki, Almaniya Silahlı Qüvvələrinin sərəncamında 53 ədəd Eurocopter Tiger helikopteri var.

## Türkiyədə üzərində partlayıcı maddələr quraşdırılan şəxs ələ keçirilib



Türkiyənin Şanlıurfa şəhərində üzərində partlayıcı maddə quraşdırılmış şəxs ələ keçirilib.

Şəhərin mərkəzi yerləşən Haşimiye meydanında saxlanılan şəxsin üzərində külli miqdarda partlayıcı maddə aşkarlanıb. Hadisə yerinə hərbi mütəxəssislər cəlb olunub.

Həmin ərazidə əhalinin hərəkəti qadağan edilib.

## Rusiyanın Arxangelsk vilayətində hərbi hissədə partlayış nəticəsində iki nəfər həlak olub



Rusiyanın Arxangelsk vilayətində hərbi hissədə partlayış nəticəsində 2 nəfər həlak olub, 15 nəfər xəsarət alıb.

Partlayış Severodvinsk şəhərindən 30 kilometr məsafədə yerləşən hərbi hissədə baş verib. Hadisənin baş vermə səbəbləri araşdırılır.

## ABŞ Cənubi Koreyaya 800 milyon dollarlıq silah satacaq



ABŞ Cənubi Koreyaya 800 milyon dollarlıq silah satacaq.

Bu barədə ABŞ Müdafiə Nazirliyinin nəzdində fəaliyyət göstərən Müdafiə Təhlükəsizlik Əməkdaşlığı Agentliyi məlumat yayıb.

Məlumata görə, Cənubi Koreyanın 12 MH-60R çoxməqsədli donanma vertolyotu və bir sıra digər hərbi sursatın alınması ilə bağlı təklifi Xarici İşlər Nazirliyi tərəfindən qəbul edilib və təsdiq üçün Konqresə təqdim edilib.

Cənubi Koreyanın satınalma ilə bağlı təklifinə 13 hərbi radar, 25 T-700-GE vertolyot mühərriki, min sualtı qayıq tapmaq üçün sonar sistemi, çox sayda fərqli rabitə avadanlığı, axtarış sistemləri və ehtiyat hissələri də daxildir.

## Ermənistan ordusunun hərbi qulluqçusu intihar edib



Ermənistan ordusunun hərbi qulluqçusu intihar edib.

Bu barədə Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Hovhannisyan "Facebook" səhifəsində məlumat yayıb.

O bildirib ki, hərbi hissələrdən birinin orkestrinin əməkdaşı, gizir Samvel Qarniki Mejlumyanın Gümrüdəki evində asılmış meyiti aşkar edilib.

**AZƏRTAC-ın materialları əsasında**

## Könlüm şeir istəyir

# Əbədiyyətin müsəlləh əsgəri

Xalq şairi Səməd Vurğun böyük Vətən müharibəsi başlayanda yazmışdı.

*Bilsin ana torpaq,*
*eşitsin Vətən,*
*Müsəlləh əsgərəm*
*mən də bu gündən.*

Şairin şeirləri də, poemaları, dram əsərləri də həmişə böyük həvəslə, sevgilərlə oxunub. Xalqın adət-ənənələrini poetik biçimdə yaşadırdı. Səməd Vurğunun poeziyası dünya xalqlarının dillərinə də tərcümə olunub və şairə böyük şöhrət gətirib...

"Azərbaycan" şeirini Səməd Vurğun poeziyasının işığı adlandırmaq mümkündür...

**"Azərbaycan Ordusu"**

### Dağlar

Binələri çadır-çadır
Çox gəzmişəm özüm, dağlar!
Qüdrətini sizdən aldı
Mənim sazım, sözüm, dağlar!

Maral gəzər asta-asta,
Enib gələr çeşmə üstə.
Gözüm yolda, könlüm səsdə,
Deyin, necə dözüm, dağlar?

Hər obanın bir yaylağı,
Hər tərlanın öz oylağı;
Dolaylarda bahar çağı:
Bir doyunca gəzim, dağlar!

Qayaları baş-başadır,
Güneyləri tamaşadır.
Gödək ömrü çox yaşadır,
Canım dağlar, gözüm dağlar!

Bir qonağam bu dünyada,
Bir gün ömrüm gedər bada;
Vurğunu da salar yada
Düz ilqarlı bizim dağlar

### Şair, nə tez qocaldın sən!

Nemətsə də gözəl şeir,
Şair olan qəm də yeyir.
Ömür keçir bu adətlə,
Uğurlu bir səadətlə.
Görən məni nədir deyir:
Saçlarına düşən bu dən?
Şair, nə tez qocaldın sən!

Dünən mənə öz əlində
Gül gətirən bir gəlin də
Gözlərində min bir sual
Heykəl kimi dayandı lal…
O bəxtəvər gözəlin də
Mən oxudum gözlərindən:
Şair, nə tez qocaldın sən!

Ovçuluğa meyil saldım,
Gecə-gündüz çöldə qaldım,
Dağ başından enib düzə
Bir ox kimi süzə-süzə
Neçə ceyran nişan aldım;
Cavab gəldi güllələrdən:
Şair, nə tez qocaldın sən!

Bəzən uca, bəzən asta,
Ötür sazım min sim üstə.
Andı yalan, eşqi yalan,
Dostluğu da rüşvət olan,
Ürək yıxan bir iblis də
Üzəvari deyir hərdən:
Şair, nə tez qocaldın sən!

Saç ağardı, ancaq ürək
Alovludur əvvəlki tək.
Saç ağardı, ancaq nə qəm!
Əlimdədir hələ qələm…
Bilirəm ki, deməyəcək
Bir sevgilim, bir də Vətən:
Şair, nə tez qocaldın sən!

### Ceyran

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartınıb, ox kimi süzüb,
Yenə öz sürünü nizamla düzüb,
Baş alıb gedirsən hayana, ceyran?

Əzəldən meylini salıb çöllərə,
Bəxtini tapşırdın bizim ellərə,
O qara gözlərin düşdü dillərə.
Dişlərin oxşayır mərcana, ceyran!

Bir məsəl qalmışdır ata-babadan:
Uçarda turacdır, qaçarda ceyran
Bir mən deyiləm ki, hüsnünə heyran,
Şöhrətin yayılıb hər yana, ceyran!

Sükuta qərq olmuş ürəyimlə mən
Keçirəm yenə də Muğan çölündən.
Yanında balası, yağış gölündən
Əyilib su içir bir ana ceyran!

Elə ki, son bahar min büsat qurur,
Kolları-kosları yıxıb uçurur,
Sıxlaşıb bir yerə baş-başa durur
Düşəndə çovğuna, borana ceyran.

On addım kənarda yatmayır təkə,
Gəzinir, oylağa baş çəkə-çəkə.
Gələn qaraltıdır, yoxsa təhlükə?
Bir özünə baxır, bir ona ceyran!

Ovçu, insaf elə, keçmə bu düzdən!
O çöllər qızını ayırma bizdən!
Qoyma ağrı keçə ürəyimizdən, -
Qıyma öz qanına boyana ceyran!
Nə gözəl yaraşır Muğana ceyran!

### Yada sal məni

Aşıq Şəmşir, Dəlidağdan keçəndə,
Kəklikli dağlardan xəbər al məni.
Ceyran bulağından qızlar içəndə,
Saz tutub, söz qoşub yada sal, məni

Hay vurub, qıy vurub, səs sal dağlara,
Gözəllər oylağı göy yaylaqlara.
Mənim bu dərdimi de oylaqlara -
Sinəmdən oxladı bir maral məni.

O ceyran baxışlı baxdı uzaqdan,
Canımı odlara yaxdı nahaqdan.
Yüz il də dolanıb keçsə o vaxtdan,
Unutmaz aləmdə əhli-dil məni.

Gəlmişəm gəzməyə sizin dağları,
Baxım yaylaqlara doyunca barı…
Bu yerə şairin düşdü güzarı,
Gözəl qarşıladı xoş iqbal məni.

Bəxt məni bu yerə qonaq göndərdi,
Gedirəm, yamandır ayrılıq dərdi.
Demə, Səməd Vurğun gəldi-gedərdi,
Unutmaz bu oba, bu mahal məni…

### Yadıma düşdü

Başına döndüyüm gül üzlü sona!
Ömrümün ilk çağı yadıma düşdü.
Şairlər vətəni, bizim tərəflər,
Tərlanın oylağı yadıma düşdü.

Oxuyun qəlbimi dastan içində,
Ürək döyünməzmi astan içində?
Payızın fəslində bostan içində,
Şamamanın tağı yadıma düşdü.

Töküldü kağıza sinəmin sözü,
O ana yurdumun ocağı, közü,
Ceyranın duruşu, durnanın gözü,
Kəkliyin ayağı yadıma düşdü.

Hanı at sürdüyüm boranda, qarda?
Gəzdim aşıq kimi min bir diyarda,
Gülüb oynadığım toyda, mağarda,
Qızların qolbağı yadıma düşdü.

Göylərə baş çəkir Göyəzən dağı,
Axşam açıq olur ayın qabağı,
Bizim gəlinlərin bayram qabağı,
Fəsəli yaymağı yadıma düşdü.

Sən bizim ellərin ruhuna bir bax!
Bizdən inciməmiş bir əziz qonaq.
Nişanlı qızların görüşdən qabaq
Telini saymağı yadıma düşdü.

Vurğunun xəyalı gəzdi aranı,
Gözümdə oynadı dağın boranı:
Qışın buz qatığı, yayın ayranı,
Payızın qaymağı yadıma düşdü.

### Mən tələsmirəm

Dostlar, badələri qaldırın içək!
Gecə, ulduzludur, hava da sərin.
Demirəm məst olub dünyadan keçək
Deyirəm mehriban düşüncələrin
İsti qucağında qızınaq bir az…
Qoy uzansın gecə, geciksin səhər,
Yuxuya getməsin məclisdəkilər -
Mənim söhbətimdən yorulmaq olmaz.
Hələ yer üstündə, insan yanında
Deyib danışmaqdan doymamışam mən
Uzadaq ömrünü hər bir anın da,
Yel kimi keçməsin vaxt üstümüzdən
Bu aylı gecədə, bu dağ döşündə,
Bu sazlı, söhbətli bulaq başında
Bu saat, bu dəm
Heç yana, heç yerə mən tələsmirəm!

Sevgilim, qolunu boynuma dola!
Demə ki, yorğunam, ya qocalmışam.
Mən hələ dünyadan nə zövq almışam?
Dur, bütün aləmi gəzək qol-qola!
Yenə də fikrimin səyyar yelkəni
Dənizdən-dənizə atsa da məni,
Qorxma! Ürəkdə de: "Uğurlar ola!"
Dur, bütün aləmi gəzək qol-qola,
Sellərdən, sulardan yeyin axsam da,
Şimşəklə yanaşı göydə çaxsam da,
Nə şadlıq səyirtsin atını, nə qəm,
Heç yana, heç yerə mən tələsmirəm!

Sən də, ovçu dostum, tələsmə sən də,
Bu qəlbi dağları qoy asta aşaq.
O çay yanındakı yaşıl çəməndə
Asta addımlayıb ağır dolaşaq.
Hər gülə, çiçəyə salam verməsəm,
Xoş üz göstərməsəm, xoş üz görməsəm
Nanələr, reyhanlar inciyər məndən.
Güllərin yarpağı tökülər dən-dən…
Odur ki, yel olub çöldə əsmirəm,
Heç yana, heç yerə mən tələsmirəm!

Bulud tez keçməsin başımın üstdən,
Çay da yavaş axsın…sular boyunca.
Baxım hər zərrəyə, baxım doyunca…
Ürək tərpənməyir ötərgi səsdən,
Nə çıxar bir anlıq yanan həvəsdən?

Elə zənn etmə ki, ağırlaşmışam,
Ayağı sarıqlı şikəst bir quşam…
Qoy dünya böyüsün, zaman uzansın,
Bir günün ərzində aylarla yansın
Al günəş üzündən nur yağa-yağa..
Ömrün kitabını tamamlamağa
Çox da can atmasın əlimdə qələm,
Mən tələsmirəm,
Mən tələsmirəm!

# İdman

## Güləşçilərimiz "Qran-pri" turnirində altı medal qazanıb



Gürcüstanın paytaxtı Tbilisidə Vaxtanq Balavadze və Givi Kartoziyanın xatirəsinə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə "Qran-pri" turniri davam edir.

Yarışların ikinci günündə ilk medalçılar müəyyənləşib. Sərbəst güləş üzrə yarışda Şamil Zubairov (92 kq) qızıl, Əhmədnəbi Qvarzatilov (61 kq) gümüş, Rəşad Yusifli (79 kq) isə bürünc medal qazanıblar.

Yunan-Roma güləşçilərinin mübarizəsində isə Elman Muxtarov (63 kq) çempion olub. Onun finalda məğlub etdiyi Murad Məmmədov, həmçinin İslambek Dadov (72 kq) ikinci yeri tutub.

## Tokioda keçiriləcək cüdo üzrə dünya çempionatında Azərbaycanı 16 idmançı təmsil edəcək



Tokioda keçiriləcək cüdo üzrə böyüklər arasında dünya çempionatında iştirak edəcək Azərbaycan millisinin heyəti açıqlanıb.

Ölkəmizi bu yarışlarda 9 kişi və 7 qadın cüdoçu təmsil edəcək.

Kişilərin yarışında Davud Məmmədsoy (60 kq), Nicat Şıxəlizadə (66 kq), Hidayət Heydərov, Rüstəm Orucov (hər ikisi 73 kq), Murad Fətiyev (81 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq) və Uşangi Kokauri (+100 kq) güclərini sınayacaqlar. Qadınlardan isə Leyla Əliyeva, Aişə Qurbanlı (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva, Aleksandra-Larisa Florian (hər ikisi 52 kq), İçinxorloo Münxtsedev (57 kq), Günel Həsənli (70 kq), İrina Kindzerska (+78 kq) mübarizə aparacaqlar.

Avqustun 25-dən 31-dək keçiriləcək dünya çempionatında 152 ölkədən 900-dən çox cüdoçu iştirakını təsdiqləyib.

## UEFA Çempionlar Liqası: "Qarabağ" səfərdə APOEL-ə qalib gəlib




Avqustun 6-da UEFA Çempionlar Liqasının 2019-2020-ci il mövsümünün üçüncü təsnifat mərhələsi çərçivəsində APOEL-"Qarabağ" oyunu keçirilib.

Oyunun 53-cü dəqiqəsində "Qarabağ" hesabda önə keçib. Xayme Romeronun verdiyi ötürmə Mahir Emrelini rəqibin qapıçısı ilə təkbətək çıxarıb. Azərbaycan milli komandasının futbolçusu uzaq küncü dəqiq nişan alaraq qola imza atıb - 0:1. Buraxılan qoldan sonra müdafiədə boşluqdan istifadə edən "Qarabağ" rəqibi ikinci dəfə meydanın mərkəzinə dəvət edib. 68-ci dəqiqədə Abdulla Zubir sol cinahda rəqibin iki müdafiəçisini keçərək Maqaye Qeye dəqiq ötürmə verib. Futbolçu ötürməni dəqiq zərbə ilə tamamlayıb - 0:2.

Oyuna əlavə olunan vaxtın 5-ci dəqiqəsində meydan sahiblərinin müdafiəçisi Georqos Merkis dəqiq baş zərbəsi ilə adını tabloya yazdırıb - 1:2.

Görüş "Qarabağ"ın 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, cavab matçı avqustun 13-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 541
Nüsxə 3950